*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 05 (546)

11 mart 2019-cu il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# 12 MART DAXİLİ QOŞUNLAR GÜNÜDÜR!



## "AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ QOŞUNLARIN GÜNÜ ELAN OLUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

## FƏRMANI

Azərbaycan Respublikası Daxili Qoşunlarının Vətənin müdafiəsində xidmətlərini və öz vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmələrini qiymətləndirərək **qərara alıram:**

Erməni işğalçılarına qarşı döyüşə başladıqları gün – 12 mart Azərbaycan Respublikasının Daxili Qoşunlarının Günü elan edilsin.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 9 mart 1995-ci il.



## AZƏRBAYCAN XALQININ MİLLİ LİDERİ HEYDƏR ƏLİYEV DAXİLİ QOŞUNLAR HAQQINDA

Daxili Qoşunların, əsasən cəbhə bölgəsində olan hissənin xidmətini xüsusi qeyd etmək istəyirəm.

Bu gün onlara hörmət və ehtiramımı bildirmək istəyirəm. Onlar orada böyük işlər görürlər. Azərbaycanın torpaqlarını qəhrəmancasına müdafiə edirlər. Belə döyüşçülərin işi hər birimizi sevindirir və böyük hörmət hissi doğurur.

Dövlət quruculuğu prosesində Daxili Qoşunların düzgün istiqamətdə təşkil olunması çox əhəmiyyətli məsələdir.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEV DAXİLİ QOŞUNLAR HAQQINDA

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda Daxili Qoşunlar yarandı. Bu, ölkəmiz üçün çox çətin bir dövr idi. Müstəqilliyimizin ilk illəri Azərbaycanda anarxiya və xaosla müşayiət olunurdu. Demək olar ki, ölkə parçalanma ərəfəsində idi və Azərbaycanda yaşanan böhran, ümumiyyətlə, ölkəmizi uçurum kənarına gətirmişdi. Bu çətin şəraitdə, əlbəttə ki, Daxili Qoşunlar öz funksiyalarını tam mənada icra edə bilməzdilər. Amma, eyni zamanda, Daxili Qoşunlarda xidmət edən şəxsi heyət Azərbaycanın ərazi bütövlüyü uğrunda cəsarətlə vuruşmuşdu, şəhidlər vermişdi və torpaqları - mızın qorunması uğrunda böyük işlər görmüşdür.

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.

Son illər ərzində Daxili Qoşunlar Azərbaycanda sürətlə inkişaf etmişdir, çox yüksək səviyyədə peşəkarlıq var, vətənpərvərlik var. Bu, bizim üçün çox böyük nailiyyətdir.

Azərbaycan dövləti, dövlətçiliyinin inkişafı və möhkəmlənməsi üçün Daxili Qoşunların xidməti yüksək səviyyədədir və məni qane edir.

## DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİ ALİ BAŞ KOMANDANIN ETİMADINI ŞƏRƏFLİ XİDMƏTİ İLƏ DOĞRULDUR



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri kimi Daxili Qoşunlar şəxsiyyətin, cəmiyyətin və dövlətin mənafeyini, vətəndaşların Konstitusiya hüquqlarını və azadlıqlarını cinayətkar qəsdlərdən qorumağa, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsini həyata keçirməyə, ictimai asayişin mühafizəsi, ictimai təhlükəsizliyin təmin olunması, habelə qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət və dövlətçiliyimiz naminə bütün əmr və göstərişlərini bundan sonra da layiqincə yerinə yetirməyə qadirdir və hazırdır.

**Ramil Usubov,**
**Azərbaycan Respublikasının Daxili İşlər Naziri,**
**general-polkovnik**

## DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİ VƏTƏNİMİZƏ, DÖVLƏTİMİZƏ VƏ XALQIMIZA SƏDAQƏTLƏ XİDMƏT EDİR

Daxili Qoşunların xidməti-döyüş fəaliyyətini uğurla yerinə yetirməsi üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən hərtərəfli şərait yaradılmışdır. Dövlət başçısının xüsusi qayğısı ilə əhatə olunmuş hərbi qulluqçularımız daim bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı doğrultmağa çalışırlar.

Şəxsi heyət ölkədə cinayətkarlıqla mübarizəyə, ictimai qaydaların etibarlı qorunmasına, bütövlükdə ictimai təhlükəsizliyin təmin edilməsinə səfərbər olunacaq, qarşıya qoyulmuş məsul tapşırıqları növbəti illərdə də əzmlə yerinə yetirəcək, xalqa, dövlətə və dövlətçiliyə sədaqətlə xidmət edəcəkdir.

**Şahin Məmmədov,**
**Azərbaycan Respublikası Daxili İşlər Nazirinin müavini – Daxili Qoşunların Komandanı,**
**general-leytenant**



## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ

## ŞƏXSİ HEYƏTİNƏ

Yarandığı gündən Vətənə və xalqa layiqincə xidmət kimi şərəfli bir yol keçən, respublikanın ərazi bütövlüyü uğrunda mərdlik, cəsarət və qəhrəmanlıqlar göstərən Daxili Qoşunlar Ümumilli Lider Heydər Əliyevin rəhbərliyi altında sabitliyin təminatçılarından və dövlətçiliyin sütunlarından birinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əvəzsiz diqqət və qayğısı sayəsində bu gün Qoşunların döyüş hazırlığı, müasir silah, texnika, xüsusi vasitələrlə təchizatı, şəxsi heyətinin xidmət şəraiti, sosial müdafiəsi ən yüksək səviyyəyə çatdırılmışdır. Qürur doğuran haldır ki, hərbçilərimiz ölkədə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin və hüquq qaydasının qorunmasında, silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində təbii fəlakətlərin və texnogen qəzaların nəticələrinin aradan qaldırılmasında, ümumən qarşıya qoyulmuş bütün xidməti-döyüş tapşırıqlarının icrasında həmişə yüksək professionallığı, qətiyyəti və hərbi anda sadiqliyi ilə seçilirlər. Qanunla müəyyən edilmiş vəzifələrin icrasında fərqlənən hərbi qulluqçuların peşə bayramları ərəfəsində dövlət mükafatlarına layiq görülməsi Möhtərəm Prezidentin Qoşunların şəxsi heyətinin xidmətlərinə verdiyi ali dəyərin və etimadının əyani ifadəsidir.

Əminəm ki, Qoşunların hərbi qulluqçuları bundan sonra da vətəndaşların və dövlətin qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında səy və bacarığını əsirgəməyəcək, asayişin və daxili təhlükəsizliyin keşiyində böyük əzmlə, ayıq-sayıq dayanacaqdır.

Daxili Qoşunların yaranmasının 27-ci ildönümü münasibətilə bütün şəxsi heyəti, həmçinin, hörmətli veteranlarımızı, şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərini ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti, Azərbaycan Respublikasına xidmətdə uğurlar arzulayıram!

**Ramil Usubov,**
**Azərbaycan Respublikasının Daxili İşlər Naziri,**
**general-polkovnik**

## DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ – DAXİLİ QOŞUNLARIN KOMANDANININ "DAXİLİ QOŞUNLAR GÜNÜ" MÜNASİBƏTİLƏ DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNƏ

## TƏBRİKİ

**Cənab generallar, zabitlər, gizirlər, çavuşlar və əsgərlər!**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları gününün 27-ci ildönümünü qeyd edir. Qoşunların hər bir hərbi qulluqçusunu taleyində əlamətdar bayram olan "Daxili Qoşunlar günü" münasibətilə ürəkdən təbrik edir, hər birinizə cansağlığı, səadət, dövlətimizin suverenliyi və ictimai asayişin təmin edilməsi kimi gərəkli vəzifələrin yerinə yetirilməsində uğurlar arzulayıram.

Daxili Qoşunların şəxsi heyəti hərbi andına sadiq qalaraq qarşılarında duran xidməti-döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməklə yanaşı, Azərbaycanın azadlığı uğrunda aparılan döyüş əməliyyatlarında fəal iştirak etmiş, misilsiz şücaət və qəhrəmanlıqlarla zəngin şərəfli döyüş yolu keçmişdir.

Müstəqillik illərində ölkə həyatının hər bir sahəsində olduğu kimi, ordu quruculuğunda yaranmış canlanma Daxili Qoşunlardan da yan keçməmiş, qoşunlar xalqı - mızın Milli Lideri Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində inkişaf edərək döyüş hazırlığının artırılması, hərbi intizamın yüksəldilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi üzrə nəzərəçarpacaq irəliləyişlər əldə etmişdir. Mərhələlərlə və ardıcıl həyata keçirilən hərtərəfli quruculuq işləri nəticəsində Daxili Qoşunlar qarşısına qoyulmuş tapşırıqları yerinə yetirməyə qadir olan, qanunla müəyyən edilmiş silahlı birləşmə kimi dövlətimizin etibarlı dayaqlarından birinə çevrilmişdir. Ağır sınaqlardan üzüağ çıxan, ildən-ilə mətinləşən, formalaşan Daxili Qoşunlar dövlətimizə, dövlətçiliyimizə qarşı yönəlmiş qüvvələrlə barışmaz mübarizə aparmış, ictimai sabitliyi, vətəndaşların əmin-amanlığını layiqincə təmin etmişdir.

**Əziz silahdaşlarım!**

İnanıram ki, Daxili Qoşunlar bundan sonra da xalqımızın, dövlətimizin və çiçəklənən Azərbaycanımızın mənafeyi naminə bütün vəzifələrin öhdəsindən layiqincə gələcəkdir.

Bir daha bu əlamətdar gün münasibətilə Daxili Qoşunların bütün şəxsi heyətini səmimi qəlbdən təbrik edir, xidmətinizdə uğurlar, şəxsi həyatınızda ailə səadəti və xoşbəxtlik arzulayıram.

**Şahin Məmmədov,**
**Daxili İşlər Nazirinin müavini – Daxili Qoşunların Komandanı,**
**general-leytenant**

2_Layout 1 08.03.2019 9:13 Page 1



## AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI DÖVRÜNDƏ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN YARDIM ALAYI

***1918-ci ildə yaranmış, Şərqdə ilk demokratik respublika olan Azərbaycan asayişin, əmin-amanlığın qorunmasını, qanunazidd hərəkətlərin qarşısını almağı da vacib hesab edirdi.***

***Azərbaycan Respublikasının Dövlət Arxivində mühafizə edilən sənədlərdə bu gün Daxili Qoşunlar adlanan qurumun məhz Azərbaycan Demokratik Respublikası (ADR) dövründə (1918-1920) yaradılması barədə məlumatlar var.***



ADR-in yeni təşəkkül tapdığı bir dövrdə əhalini hərbi işə tanış etmək, şəhərdə sabitlik və nizam-intizamın saxlanması məqsədilə, Parlamentin müvafiq qərarına uyğun olaraq, 1919-cu il 1 iyun tarixindən könüllü əsgərlərdən ibarət dəstə yaradılmışdır.

Bu barədə Bakı şəhərinin komendantı general-mayor Firidun bəy Vəzirovun 7 sentyabr 1919-cu il tarixli məlumatında bildirilmişdir.

Dəstə Bakı şəhərinin 14 rayonunu – Sabunçu, Mərkəzi, Balaxanı, Zabrat, Suraxanı, Xilə, Aşağı Bibiheybət, Yuxarı Bibiheybət, Qara şəhər, Ağ şəhər, Tağıyev fabrikası, Binəqədi, Maştağa və Nardaranı əhatə edirdi.

Dəstənin rəisi Yusif Ziya bəy Talıbzadə təyin edilmişdir.

1919-cu il 10 iyun tarixində Azərbaycan Demokratik Respublikası Dövlət Müdafiə Komitəsinin iclasında qərara alınmışdı ki, Bakı şəhəri və onun rayonlarının ərazisində yaşayan hərbi çağırış yaşına çatmış şəxslər üçün hərbi hazırlıq təşkil edilsin.

Könüllü dəstələrin təşkili üzrə komissiyanın sədri Yusif Ziya bəy Talıbzadə (beş min rubl əməkhaqqı verilməklə) təyin edilmişdir.

1920-ci il 27 mart tarixində yenə də Azərbaycan Demokratik Respublikası Dövlət Müdafiə Komitəsinin qərarı əsasında Bakı təşkilatının Yardım alayının könüllü dəstələri ADR Daxili İşlər Nazirliyinin sərəncamına verilmişdir.

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ FORMALAŞMASI

***SSRİ dövründə dövlətdə ictimai təhlükəsizliyin qorunması məqsədilə hərbi statuslu xüsusi qurum formalaşdırılmış və Daxili Qoşunlar adlandırılmışdır.***

SSRİ-də Daxili Qoşunların xidməti fəaliyyətinin imkanları və miqyası kifayət qədər geniş olmuşdur. Həmin imkanları yaratmış maddi-texniki bazanın və kadr potensialının bir hissəsi sonrakı tarixi dövrdə MDB ölkələrinə miras qalmışdır.

SSRİ DİN-in Daxili Qoşunlarının sıralarında azərbaycanlı zabit, gizir, çavuş və əsgərlər də xidmət etmişlər. Onların bir qisminin zəngin xidmət təcrübəsindən sonradan ölkəmizin ordu quruculuğu prosesində istifadə olunmuşdur.

Müstəqil Azərbaycanın Daxili İşlər Nazirliyinin tərkib hissəsi olan Daxili Qoşunların yaradılması 1991-ci il oktyabrın 18-də ölkəmizin suverenlik əldə etməsindən sonra mümkün olmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 11.12.1991-ci il tarixli müvafiq fərmanı ilə Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının formalaşmasına başlanmışdır. SSRİ DİN-in Daxili Qoşunlarının o vaxt Bakı, Sumqayıt və Gəncədə yerləşmiş hərbi hissələrinin bazasında müstəqil dövlətimizə məxsus yeni hərbi hissələrin yaradılması hərbi quruculuq baxımından mühüm hadisə idi. SSRİ DİN-in Daxili Qoşunlarının həmin hərbi hissələri o vaxt respublikamızın sərəncamına keçmişdir. Bu hərbi hissələrin hərbi əmlakı, silah-sursatı, xüsusi vasitələrinin ölkədən daşınmasının qarşısı alınmışdır.

1991-ci ilin dekabrında Azərbaycan DİN-in Daxili Qoşunlarının hərbi hissələrinin komplektləşdirilməsi üçün onun sıralarına ilk çağırış həyata keçirilmişdir. 17.12.1991-ci il tarixdə çağırışçıların ilk qrupu hərbi hissələrə qəbul olunmuşdur.

1992-ci il fevralın 2-də Daxili Qoşunların əsgərlərinin ilk hərbi andiçmə mərasimi təşkil olunmuşdur. Həmin mərasimdə əsgərlər müstəqil Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi andını qəbul etmişlər.

Daxili Qoşunlar müstəqil dövlətimizin ilk nizami qoşun növlərindən biri kimi ordu quruculuğunun başlanğıc mərhələsində xüsusi rol oynamışdır.



*Daxili Qoşunların əsgərlərinin ilk hərbi andiçmə mərasimi*

Respublikamızın Daxili Qoşunlarının formalaşdığı ilk mərhələdə mövcud hərbi hissələrin potensialı yaşayış məntəqələrində daxili işlər orqanları ilə birgə ictimai asayişin və təhlükəsizliyin qorunmasına, cəzaçəkmə müəssisələrinin mühafizəsinə yönəldilmişdir. Sonrakı dövrdə respublikamızın regionlarında Daxili Qoşunların yeni hərbi hissələrinin yaradılması prosesi həyata keçirilmişdir.

## DAXİLİ QOŞUNLAR ÖN CƏBHƏDƏ

***Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları döyüş yoluna başladığı ərəfədə Dağlıq Qarabağ və ətraf rayonlarda erməni işğalçıları ilə döyüşlər gedirdi. Xocalıda dinc əhaliyə qarşı soyqırım törədilmişdi. Ölkədaxili ictimai-siyasi vəziyyət də gərginləşmişdi.***



1992-ci il martın 12-də Daxili Qoşunların Baş İdarəsinin, Bakı və Sumqayıt şəhərlərində yerləşən hərbi hissələrinin şəxsi heyətindən ibarət birləşmiş hərbi dəstə Ağdam rayonu ərazisinə gətirilmişdir.

Bu hərbi dəstənin ilk dayanacağı Şelli kəndi olmuş, sonra Qalayçılar və Papravənd kəndlərinin müdafiəsinə göndərilərək, bu istiqamətdə döyüş mövqelərini öz nəzarətinə götürmüşdür.

Həmin gün qoşunların şəxsi heyətinin dayandığı mövqelər düşmən tərəfindən müxtəlif çaplı silahlardan şiddətli atəşə tutulmuşdur. Hərbi qulluqçularımız bu ilk döyüş sınağından alnıaçıq çıxaraq, qətiyyət və cəsarət göstərmiş, düşməni cavab atəşi ilə susdurmuşlar.

Daxili Qoşunların şəxsi heyəti ön cəbhəyə gəldiyi ilk anlardan yüksək nizam-intizam, ruh yüksəkliyi və qorxmazlıq nümunələri göstərib. Zabit, gizir, çavuş və əsgərlərimizin fədakarlığı yerli sakinlərdə onlara inam hissi yaradıb.

Döyüş bölgəsində yerləşdirilən Daxili Qoşunların birləşmiş hərbi dəstəsi sonradan burada yeni hərbi hissələrin formalaşmasına zəmin yaradıb.

1992–1994-cü illərdə Daxili Qoşunların hərbi hissələri Ağdam, Ağdərə, Qubadlı, Laçın, Kəlbəcər, Zəngilan, Füzuli və Cəbrayıl rayonları ərazisində respublikamızın ərazi bütövlüyü uğrunda döyüş yolu keçmişlər.

Göstərilən istiqamətlərdə döyüş əməliyyatları mürəkkəb relyefə malik, habelə strateji yüksəkliklərin, mühüm kommunikasiya qovşaqlarının, hətta dövlət sərhəd zolağının yerləşdiyi əraziləri, eləcə də kiçik və böyük yaşayış məntəqələrini əhatə etməklə, müxtəlif hava şəraitində, bəzən döyüş təchizatının fasiləsiz təmin edilməsinin müəyyən çətinlikləri vəziyyətində aparılmışdır.

Daxili Qoşunların şəxsi heyətinin döyüş təcrübəsi qanla, ölüm-itimlə yazılmışdır. O vaxt hərbi qulluqçularımızın böyük əksəriyyəti ilk dəfə olaraq müharibə sınaqları ilə üz-üzə gəlmişlər. Buna baxmayaraq, hərbi qulluqçularımız ağır sınaqlar qarşısında yüksək iradə və qətiyyət, şücaət nümunələri göstərmişlər.

1992-ci ilin mart-dekabr, habelə 1993-cü ilin yanvar-oktyabr aylarında Daxili Qoşunların ön cəbhədəki şəxsi heyətinin iştirakı ilə Ağdərə, Ağdam, Kəlbəcər, Laçın, Füzuli və Zəngilan rayonlarında düşmənin xeyli canlı qüvvəsi, texnika, artilleriya qurğuları, istehkam vasitələrinin məhv edilməsi ilə nəticələnən uğurlu hücum və müdafiə xarakterli döyüşlər olmuşdur. Döyüş salnaməmizin bu ziddiyyətli və keşməkeşli mərhələsi işğal altında olan ərazilərin bir hissəsinin azad edilməsi və torpaqlarımızın bir qisminin yenidən işğala məruz qalması acı gerçəkliyi ilə də yadda qalmışdır.

Həmin dövrün sarsıntılı müharibə itkiləri milli birlik və möhkəm dövlətçilik kimi taleyüklü faktorların təmin olunmasındakı boşluqların ölkənin ərazi bütövlüyünün qorunmasına necə ciddi zərbə vurduğunu göstərdi.

1993-cü il noyabrın 2-də Milli Lider cənab Heydər Əliyevin radio və televiziya ilə xalqa tarixi müraciəti bütünlüklə Silahlı Qüvvələrin yenidən qurulması və formalaşması yolunda gərəkli bir proqrama çevrildi. Ulu Öndərin tarixi çağırışı Daxili Qoşunlarda böyük canlanma və ruh yüksəkliyi yaratdı. Daxili Qoşunların şəxsi heyətinin məhz bu zaman, 1993-cü ilin noyabr-dekabr aylarında Füzuli rayonunda düşmənin hücumlarının qarşısını alması, 1994-cü ilin yanvar ayında isə ordu hissələri ilə birgə başlanan əks hücumu ağır döyüşlərdən sonra Horadiz sərhədyanı qəsəbəsinin (hazırda Horadiz şəhəri) və ətraf kəndlərin, habelə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin işğaldan azad olunması ilə nəticələnmişdir. Azərbaycanın xeyrinə əsaslı dönüş kimi qiymətləndirilən bu döyüşlərdə Daxili Qoşun hissələrinin fəaliyyəti əvəzsiz olmuşdur.

Ümumiyyətlə, ərazi bütövlüyümüz uğrunda döyüş əməliyyatları aparılan müddətdə Daxili Qoşunların şəxsi heyətindən yüzlərlə hərbi qulluqçu həlak olmuş və itkin düşmüş, mindən çox hərbi qulluqçu isə yaralanmışdır.

1994-cü ilin may ayında ön cəbhədə atəşkəs elan olunduqdan sonra Daxili Qoşunların şəxsi heyəti 1999-cu il fevral ayının 6-dək Füzuli və Cəbrayıl rayonları ərazisindən keçən düşmənlə təmas xəttindəki mövqelərimizin müdafiə olunması üzrə döyüş tapşırıqlarını layiqincə yerinə yetirmişdi.

## QƏHRƏMANLIQ ÖRNƏYİ

***Dünya hərb tarixi göstərir ki, öz milli-mənəvi dəyərlərindən güc alan, Vətənin müqəddəsliyi əqidəsinin daşıyıcısı olan, ecdadlarının döyüş ruhunu qoruyub saxlayan xalq qəhrəmanlar yetişdirməyə qadirdir. Xalqımız bu qüdrətini taleyinin bütün ağır sınaqlarında dəfələrlə isbatlayıb. Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində başlanan Qarabağ müharibəsi xalqımızın neçə-neçə qəhrəmanını meydana çıxartdı. Vətənin qəhrəmanlıq zirvəsini fəth etmiş bu dəyanətli övladları dövlətçilik və hərb tariximizdə şərəfli iz qoymuşlar.***



İstefada olan polis polkovniki Məmmədov Sahil Ələmdar oğlu



Kapitan Arazov Ənvər Talış oğlu



Baş leytenant Yəhyayev Elşad Məmmədhənifə oğlu



Baş leytenant Quliyev Mətləb Kamran oğlu



Baş leytenant Nəcəfov Fəxrəddin Vəlyəddin oğlu



Baş leytenant Abdullayev Rövşən Abdulhüseyn oğlu



Çavuş Makeyev İqor Vladimiroviç



Əsgər Məhərrəmov Səxavət Ələmdar oğlu



Əsgər Muradov Ruslan Həmid oğlu

“Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına layiq görülmüş fədai oğullar arasında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 9 nəfər hərbi qulluqçusu da var. Onlardan 8 nəfəri bu fəxri adla ölümündən sonra təltif edilib. Kapitan Ənvər Arazov, baş leytenant Elşad Yəhyayev, baş leytenant Mətləb Quliyev, baş leytenant Fəxrəddin Nəcəfov, baş leytenant Rövşən Abdullayev, çavuş İqor Makeyev, əsgər Səxavət Məhərrəmov və əsgər Ruslan Muradov ərazi bütövlüyümüz uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə şəhidlik zirvəsinə ucalmışlar. Müharibə sınaqlarından keçərək sağ qalmış, ağır yaralanaraq əlil olmuş Sahil Məmmədov isə bu gün istefada olan polis polkovnikidir.

Bu qəhrəman hərbi qulluqçularımızdan 6 nəfəri zabit, 1 nəfəri çavuş, 2 nəfəri isə əsgər hərbi rütbəsində şərəfli döyüş yolu keçmişlər. Onlardan 6 nəfərinin (kapitan Ənvər Arazov, baş leytenant Mətləb Quliyev, baş leytenant Fəxrəddin Nəcəfov, çavuş İqor Makeyev, əsgər Səxavət Məhərrəmov və əsgər Ruslan Muradov) döyüş yolunun son məntəqəsi Ağdərə olmuşdur. Baş leytenant E.Yəhyayev Ağdamda, baş leytenant R.Abdullayev isə Zəngilanda əbədiyyətə qovuşmuşlar. S.Məmmədov Zəngilan uğrunda döyüşlərdən birində ağır yaralanıb.

Qəhrəmanlarımızın hər biri haqqında qürurla demək olar ki, müharibənin od-alovu içində, dəhşətli gerçəklikləri ilə üz-üzə qaldıqda Vətən sevgiləri, hərbi anda sədaqətləri onların mənəvi güc mənbəyi olub. Onlar döyüş meydanında şücaət nümunələri göstərmişlər. Bu qəhrəmanların arasında zabit olaraq, bir sıra döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsini təmin etmiş və son nəfəsinədək vuruşmuş qorxmaz komandirlərin hünəri hazırda xidmət edən zabitlərə dəyərli örnəkdir. Onlarla yanaşı, kiçik hərbi rütbəli, cəsur döyüşçü kimi düşmənin üzərinə atılaraq onu itkilərə məruz qoymuş, vuruşduğu hər qarış torpaq uğrunda rəşadət göstərərək yenilməzliyini sübut etmiş və həyatını qurban vermiş qəhrəmanlarımız da həmişə ehtiramla xatırlanacaqlar.

Biz döyüş yolumuzdan danışdıqda, müharibənin ağır sınaqlarından necə çıxdığımızı təhlil etdikdə başımızı uca edən məqamlardan biri sıralarımızda qəhrəman oğulların vuruşmasıdır.

İnanırıq ki, qəhrəmanlarımızın şanlı yolu bu günün zabit və əsgərləri tərəfindən ləyaqətlə davam etdiriləcək, düşmən tapdağı altında olan torpaqlarımız azad olunaraq, doğma Qarabağımızda müqəddəs üçrəngli bayrağımız yenidən qaldırılacaqdır.

## DAXİLİ QOŞUNLARIN İLK ŞƏHİDLƏRİ



Baş leytenant Ruber Səfərəliyev



Leytenant Rafiq İsmayılov



Çavuş Hatəmxan Babayev

3_Layout 1 08.03.2019 9:25 Page 1



# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI CƏNAB İLHAM ƏLİYEVİN DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏLƏRİNƏ SƏFƏRLƏRİ



***2005-ci ilin mart ayının 12-də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 13-cü ildönümü münasibətilə Daxili Qoşunların Bakı şəhərinin Nərimanov rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsində təntənəli mərasim keçirilmişdir.***

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevi Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov, digər yüksək rütbəli və vəzifəli şəxslər qarşılamışlar.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "N" saylı hərbi hissəyə gəlişi ilə şəxsi heyətə qürur və şərəf hissi bəxş etmişdir. Onun bu gəlişi Daxili Qoşunların fəaliyyətinə, döyüş və xidmət yoluna verilən ən yüksək, layiqli qiymət idi.

Respublika Prezidentinin Daxili Qoşunlarla bağlı söylədikləri fikirlər, verdiyi yüksək qiymət hər bir hərbi qulluqçunun məsuliyyətini qat-qat artıran, onların daha fədakar xidmətini təmin edən stimuldur.



***Prezident İlham Əliyev 2006-cı il martın 1-də Bərdə şəhərində Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yeni yaradılan "N" hərbi hissəsinin inzibati binasının tikintisi ilə tanış olmuşdur.***

Prezident İlham Əliyev yeni yaradılan hərbi hissənin yerləşəcəyi ərazinin maketi və layihəsi ilə yaxından tanış olmuş, nəzərdə tutulan işlərə tezliklə başlanılmasının vacibliyini vurğulamış, bunun üçün lazım olan vəsaitin ayrılacağını bildirmişdir. Ali Baş Komandan tikinti işlərinin keyfiyyətinə xüsusi diqqət yetirilməsini tövsiyə etmişdir.

Məlumat üçün qeyd edək ki, Prezident İlham Əliyev Daxili Qoşunların Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissəsində 2008-ci il yanvarın 17-si və 2009-cu il martın 2-si tarixlərində də olmuş və burada yaradılan şəraitlə yaxından tanış olmuşdur.

***Prezident İlham Əliyev 2009-cu il mayın 25-də Daxili Qoşunların Gəncə şəhərində yerləşən "N" hərbi hissəsində zabit yataqxanasının açılışında iştirak etmişdir.***

Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Ali Baş Komandana raport vermişdir.



Prezident İlham Əliyev açılışı bildirən lenti kəsmiş, yataqxana ilə tanış olmuş və burada yaradılmış şəraiti yüksək qiymətləndirmişdir.

***Prezident İlham Əliyev 2011-ci il sentyabrın 24-də Daxili Qoşunların Quba rayonundakı "N" saylı hərbi hissəsinin açılışında iştirak etmişdir.***

Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport vermişdir.

Dövlət başçısı hərbi şəhərcikdə yaradılan şəraitlə, o cümlədən Daxili Qoşunların xüsusi təyinatlı dəstəsinin şəxsi heyətinin silahlanması, texnika və xüsusi vasitələrin təqdimatı ilə tanış olmuşdur.



Prezident İlham Əliyevə Daxili Qoşunların xüsusi təyinatlı dəstəsinin baş geyimi hədiyyə edilmişdir.

Hərbi şəhərciyin fəaliyyəti ilə tanış olan Prezident İlham Əliyev tapşırıq və tövsiyələrini vermişdir.

***Prezident İlham Əliyev 2013-cü il aprelin 16-da Daxili Qoşunların Hacıqabul rayonunda yerləşən "N" saylı hərbi hissəsində aparılmış quruculuq işləri ilə tanış olmuşdur.***

Azərbaycan Prezidenti hərbi şəhərciyin ərazisini gəzmiş, yenidən qurulan 70 mənzilli zabit yataqxanasına baxmış, zabit ailələrinin yaşayış şəraiti ilə maraqlanmışdır.



Dövlətimizin başçısı hərbçilərin uşaqları ilə xatirə şəkli çəkdirmişdir.

Hərbi şəhərciyin fəaliyyəti ilə tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

***Prezident İlham Əliyev 2014-cü il sentyabrın 22-də Daxili Qoşunların Qəbələdəki "N" saylı hərbi hissəsində inşa olunan yeni şəhərciyin açılışında iştirak etmişdir.***

Dövlət başçısına məlumat verilmişdir ki, burada beşmərtəbəli qərargah, əsgər yataqxanası və yeməkxanası, nəzarət-buraxılış məntəqəsi və zabit yataqxanası tikilib. Ərazidə geniş sıra meydanı yaradılıb, daxili kommu-nikasiya xətləri çəkilib, yaşıllaşdırma işləri görülüb. Prezident İlham Əliyev hərbi hissənin qərargahında, əsgər yeməkxanasında yaradılan şəraitlə də tanış olmuşdur.





Sonda dövlət başçısı Daxili Qoşunların silahlı cinayətkar dəstələrin zərərsizləşdirilməsində istifadə etdiyi silah və texnika növlərinə baxmışdır.

**Prezident İlham Əliyev 2017-ci il iyunun 23-də Daxili Qoşunların Şirvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində aparılmış quruculuq işləri ilə tanış olmuşdur.**

Dövlətimizin başçısına Daxili Qoşunların hərbi silah-sursat və texnikası barədə məlumat verilmişdir. Qeyd olunmuşdur ki, bu gün Daxili Qoşunlar istər döyüş qabiliyyəti, istər maddi-texniki təchizat, istərsə də hərbi-texniki avadanlıqlara görə ən müasir hərbi birləşmələrdən biridir. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin vahid sisteminin mühüm struktur hissələrindən biri olan Daxili Qoşunlar cəmiyyətin və dövlətin mənafeyinin, vətəndaşların konstitusion hüquq və azadlıqlarının cinayətkar qəsdlərdən qorunması, mühüm dövlət obyektlərinin, kommunikasiya qurğularının mühafizəsinin həyata keçirilməsi, ictimai asayişin mühafizəsi və qanunvericiliklə müəyyən edilmiş digər vəzifələri layiqincə yerinə yetirir.






***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hər dəfə Daxili Qoşunların hərbi hissələrində olarkən döyüş hazırlığı ilə yanaşı, şəxsi heyətin sosial-məişət şəraitilə yaxından tanış olması, onların qayğıları ilə maraqlanması hərbi qulluqçularımızın sözün əsl mənasında, döyüş ruhunu yüksəldir.***

***Cənab Ali Baş Komandanın xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş hərbi qulluqçularımız öz bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı daima doğrultmağa çalışacaqlar!***

4_Layout 1 08.03.2019 10:06 Page 1



# BEYNƏLXALQ ƏHƏMİYYƏTLİ TƏDBİRLƏRDƏ DAXİLİ QOŞUNLARIN FƏALİYYƏTİ




***Respublikamızda keçirilmiş beynəlxalq əhəmiyyətli tədbirlər zamanı diqqətçəkən əsas məqamlardan biri də ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi idi. Belə mötəbər tədbirlərin beynəlxalq səviyyədə xüsusi diqqət mərkəzində olmasını, həmin vaxt ölkəmizə çoxlu sayda nümayəndə heyəti, kütləvi informasiya vasitələri əməkdaşının gəlməsini və ümumən turist axınını nəzərə aldıqda, ictimai təhlükəsizlik məsələlərinin nə dərəcədə böyük rol oynadığı aydın olur.***

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti polis əməkdaşları ilə birgə müxtəlif illərdə ölkəmizdə keçirilmiş beynəlxalq əhəmiyyətli tədbirlər zamanı ictimai təhlükəsizliyin təmin olunması üzrə qarşıya qoyulmuş tapşırıqları uğurla yerinə yetirmişlər.***



### “EUROVİSİON-2012” BEYNƏLXALQ MAHNI MÜSABİQƏSİ

2012-ci il 22-26 may tarixlərində Bakı şəhərində ölkəmizin həyatında ilk dəfə olaraq “Eurovision-2012” mahnı müsabiqəsinin keçirilməsi ilə əlaqədar Daxili Qoşunların şəxsi heyəti tərəfindən tədbirin keçirildiyi ərazinin 12 sahə üzrə mühafizəsinin təmin edilməsi məqsədilə xidmətin aparılması təşkil olunmuşdur.

Xidmətin aparılması zamanı şəxsi heyət tərəfindən polis əməkdaşları ilə birgə tədbirin keçirildiyi ərazilərdə ictimai asayişin mühafizəsi və ictimai təhlükəsizliyin qorunması təmin edilmiş, hər hansı neqativ hadisənin baş verməməsi üçün qabaqlayıcı tədbirlər görülmüşdür.



### “FİFA U-17” QADINLARARASI DÜNYA ÇEMPİONATI

2012-ci ilin sentyabr-oktyabr aylarında Azərbaycan Respublikasında keçirilmiş 17 yaşına qədər qadınlar arasında futbol üzrə Dünya çempionatı zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasına polis əməkdaşları ilə birgə Daxili Qoşunların şəxsi heyəti də cəlb edilmişdir. Xidmətin aparılması zamanı qarşıya qoyulan vəzifənin mahiyyətini böyük məsuliyyət hissi ilə dərk edən şəxsi heyət üzərinə düşən tapşırıqların öhdəsindən yüksək peşəkarlıqla gəlmiş, Dünya çempionatının təhlükəsizliyi etibarlı şəkildə qorunmuşdur.




### BƏDİİ GİMNASTİKA ÜZRƏ AVROPA ÇEMPİONATI

2015-ci il iyunun 13-dən 15-dək Bakıda keçirilmiş Bədii gimnastika üzrə Avropa çempionatı zamanı ictimai təhlükəsizliyin təmin edilməsi məqsədilə xidmətə cəlb olunmuş şəxsi heyətin fəaliyyəti yüksək səviyyədə olmuş, hərbi qulluqçularımız sayıqlıq nümunəsi göstərmişlər.



### İLK AVROPA OYUNLARI

2015-ci il iyunun 12-dən 28-dək bütün Avropanın, eləcə də dünya idman ictimaiyyətinin diqqəti Azərbaycana yönəlmişdir. Belə ki, həmin vaxt Avropa idman hərəkatı tarixində bir ilk olaraq Avropa Oyunları keçirildi. Bu şərəfli missiyanın ölkəmizə həvalə edilməsi böyük tarixi mahiyyət kəsb edən hadisə olmuşdur.

I Avropa Oyunları zamanı Daxili Qoşunların şəxsi heyəti qarşıya qoyulan mühüm tapşırıqları peşəkarlıqla yerinə yetirmişdir.

Şəxsi heyətin vəzifə borclarına məsuliyyətli münasibəti daim DİN rəhbərliyi və Daxili Qoşunlar Komandanlığının diqqət mərkəzində olmuşdur.




### QƏBƏLƏ ŞƏHƏRİNDƏ KEÇİRİLMİŞ GƏNCLƏR ARASINDA ATICILIQ ÜZRƏ DÜNYA KUBOKUNUN MƏRHƏLƏ YARIŞI

2016-cı il sentyabr ayının 16-dan 23-dək Qəbələ şəhərində gənclər arasında Atıcılıq üzrə Dünya kubokunun mərhələ yarışı keçirilmişdir.

Beynəlxalq turnir keçirildiyi zaman ən vacib məqamlardan olan ictimai təhlükəsizliyin təmin edilməsinə və ictimai qaydanın qorunmasına polis orqanlarının əməkdaşları ilə birgə Daxili Qoşunların 17071 saylı hərbi hissəsinin hərbi qulluqçuları da cəlb olunmuşlar.

Bu məqsədlə hərbi hissədə qüvvə və vasitələrin hazırlığının yoxlanılması üçün sıra baxışı keçirilmişdir. Hərbi hissə komandanlığı tərəfindən xidmətə cəlb olunan şəxsi heyətin hazırlığı, geyim təminatı, xüsusi avadanlıq və vasitələrlə təchizatı, eləcə də avtomobil və xüsusi texnikanın vəziyyəti yoxlanılmışdır.

Qəbələ şəhərində keçirilmiş yarış zamanı şəxsi heyət tərəfindən kənar şəxslərin idman klubuna daxil olmasının qarşısının alınması məqsədilə perimetr boyu xidmətin aparılması və idman silahları saxlanan anbarların mühafizəsi təmin edilmişdir.

Atıcılıq klubunda müntəzəm olaraq mühəndis-istehkam qrupu tərəfindən şübhəli əşya, partlayıcı qurğu və maddələrə qarşı müayinə tədbirləri həyata keçirilmiş, bu məqsədlə xidməti itlərdən istifadə olunmuşdur.

Beynəlxalq turnirin keçirildiyi obyektlərdə xidmət aparan hərbi qulluqçuların maddi-texniki təchizatı da diqqət mərkəzində saxlanmışdır. Bununla bağlı bütün növ maddi-texniki təminat tədbirləri görülmüş, təyin olunmuş yerlərdə şəxsi heyətin istirahəti və qidalanması yüksək səviyyədə təşkil edilmişdir.

Xidmətə cəlb edilmiş hərbi qulluqçularımız tərəfindən yarış müddətində yüksək peşəkarlıq nümayiş etdirilərək qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilmişdir.







### “FORMULA-1” AVROPA QRAN-PRİSİ

Şərqlə Qərbin qovuşduğu, Avropa və Asiya mədəniyyətinin vəhdət təşkil etdiyi füsunkar Bakımız bir çox mötəbər turnirlərə evsahibliyi etmişdir. Dünyada idman reytinqinə görə 3-cü dərəcəli əhəmiyyət kəsb edən “Formula-1” Avropa Qran-Prisinin 2016-cı il iyun ayının 17-dən 19-dək Bakıda keçirilməsi böyük idman turnirlərinin təşkilində öz sözünü demiş dövlətimizin yüksək potensialını Avropaya nümayiş etdirdi.

“Formula-1” yarışında ictimai qaydanın, eləcə də ictimai təhlükəsizliyin təmin olunmasında Daxili Qoşunların şəxsi heyəti də xidmətə cəlb edilmişdir.

Əvvəlcə xidmətə cəlb olunan şəxsi heyətin yarışa hazırlığı ilə əlaqədar olaraq Daxili Qoşunlar Komandanlığı tərəfindən sıra baxışı keçirilmiş, müvafiq tapşırıqlar verilmişdir.

Mötəbər tədbir zamanı ictimai təhlükəsizliyin təmin olunmasında kifayət qədər təcrübəyə malik olan şəxsi heyət qarşıya qoyulmuş bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmişdir.

Xidmətin aparılması zamanı vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan şəxsi heyət Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı tərəfindən mükafatlandırılmışdır.







***Xidmətdə uğurlu göstəricilərin, əldə olunan nailiyyətlərin arxasında təlimlərdə çəkilən zəhmət, nizam-intizama ciddi riayət, hərbi xidmət borcuna şüurlu və qarşıya qoyulmuş tapşırıqların icrasına vicdanlı münasibət dayanır.***

***Daxili Qoşunların hərbi qulluqçularını ictimaiyyətin nəzərində ucaldan da məhz bu cəhətlərdir.***

5_Layout 1 08.03.2019 10:14 Page 1






# DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİ

*Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının həyatında ötən 27 ilin mühüm hadisələrindən biri də Daxili Qoşunların Ali Hərbi Məktəbinin yaradılmasıdır. Ali Hərbi Məktəbin formalaşmasınadək ötən dövrdə Daxili Qoşunların tərkibində tədris təyinatlı və fərqli strukturlu hərbi hissələr fəaliyyət göstərmişdir.*

*1997-ci il oktyabrın 31-də imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlar Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına aid Protokol"un tələblərinə uyğun olaraq, Daxili Qoşunlarda müasir tələblərə cavab verən tədris prosesinin təşkilinə start verilmişdir.*



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 aprel 2006-cı il tarixli qərarına əsasən, Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinin əsası qoyulmuşdur.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbi Azərbaycan Respublikasının Prezidentinin 25 fevral 2011-ci il tarixli Sərəncamı ilə Orta Ixtisas Hərbi Məktəbinin bazasında yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 09 iyul 2012-ci il tarixli Fərmanı ilə Ali Hərbi Məktəbin Nizamnaməsi təsdiq edilmişdir.



Daxili Qoşunların Ali Hərbi Məktəbi ali xüsusi - hərbi təhsilli kadrların hazırlanmasını, zabit və gizirlərin, müddətdən artıq xidmət edən hərbi qulluqçuların ixtisaslarının artırılmasını, gizirlərin hazırlanmasını və elmi-tədqiqat işlərinin aparılmasını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisəsidir.

Ali Hərbi Məktəbdə tədris Avropada tətbiq olunan Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğun keçirilir. Təhsil müddəti dörd ildir.

Ali Hərbi Məktəbdə mütəxəssis və elmi-pedaqoji kadr hazırlığı bakalavriat səviyyəsində aparılır.

**Ali Hərbi Məktəbi bitirən məzunlara "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası, qanunvericiliklə nəzərdə tutul-muş diplom, döş nişanı, 3-cü məharət dərəcəsi və Daxili İşlər Nazirinin əmrilə "leytenant" hərbi rütbəsi verilir.**

Ali Hərbi Məktəbin fəaliyyətinin müasir standartlara uyğun təşkili məqsədilə bütün lazımi şərait mövcuddur. Belə ki, burada qərargah, kursantların təlimi və yaşayışı üçün yeni korpuslar, xidmət və məişət təyinatlı bir sıra obyektlər, o cümlədən yeməkxana istifadəyə verilmişdir.

Müasir texnologiyalar və yeni tədris vəsaitlərinin tətbiqi, yaradılan müvafiq maddi-texniki baza zabit kadrlarının hazırlanmasına olan tələblərin müvəffəqiyyətlə həyata keçirilməsinə yönəldilən addımlardır.

Daxili Qoşunların Ali Hərbi Məktəbinin formalaşması və davamlı inkişafı üçün Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində, Daxili İşlər Naziri və Daxili Qoşunlar Komandanının rəhbərliyi altında görülən bu möhtəşəm işlər Daxili Qoşunlarda peşəkar kadrların hazırlanması baxımından böyük əhəmiyyət kəsb edir.

Daxili Qoşunların Ali Hərbi Məktəbinin respublikanın hərbi təhsil müəssisələri sırasında qısa müddətdə nüfuz qazanması və ildən-ilə Ali Hərbi Məktəbə qəbul olunmaq istəyən gənclərin sayının artması da uğurlu fəaliyyəti xarakterizə edən müsbət göstəricidir.





## GÜC, MƏHARƏT, ÇEVİKLİK VƏ NİZAMIN VƏHDƏTİ...

# DAXİLİ QOŞUNLARIN ŞƏXSİ HEYƏTİNİN TƏLİMLƏRİ...



**Xidməti-döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsinə şəxsi heyətin mükəmməl hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün döyüş təlimi prosesinin keyfiyyətli təşkili, onun məzmun və üsullarının davamlı olaraq təkmilləşdirilməsi, yeni texnika, silahlar, xüsusi vasitələrin xüsusiyyətlərinin praktiki mənimsənilməsi, fəaliyyət taktikası üzrə məşqlərin real şəraitə uyğun keçirilməsi peşəkarlıq vərdişlərinin formalaşmasında əsaslı zəmin yaradır. Hər bir hərbi hissə və bölmənin, hərbi qulluqçunun gücü onun döyüş qabiliyyətinə bağlıdır. Bu baxımdan Daxili Qoşunlarda döyüş təlimi prosesi komandanlığın xüsusi diqqət mərkəzindədir və ildən-ilə göstərilən sahədə yeniliklər tətbiq olunur.**

Hazırda Daxili Qoşunların sərəncamında müasir standartlara cavab verən poliqon, təlim mərkəzləri və şəhərcikləri, idman zalları, atıcılıq tirləri, tədris vasitələri və ləvazimatları mövcuddur. Hərbi hissələrdə məşğələ otaqları müasir tərtibata malikdir və lazımi texniki avadanlıqlarla təchiz olunub.

Daxili Qoşunlarda döyüş təliminin öz xüsusiyyətləri var. Bu prosesdə Daxili Qoşunların vəzifələrindən irəli gələn praktiki fəaliyyətlərə əsas diqqət yönəldilir. Daxili Qoşunların taktikasının çoxşaxəli elementləri təlimlərdə müvafiq nizamnamə, direktiv və digər normativ sənədlərin tələbləri əsasında məşq etdirilərək, ötən illərdə qazanılan təcrübə də nəzərə alınır.

Bütövlükdə, döyüş təlimlərində şəxsi heyətin fiziki hazırlığının möhkəmləndirilməsinə, silahlardan sərrast atəş açmaq bacarıqlarının inkişaf etdirilməsinə, zirehli texnika, avtomobillərin idarə olunması məharətinin artırılmasına, çeviklik, dözümlülük, ahəngdarlıq, nizamlılıq vərdişlərinin aşılanmasına nail olunur.

Daxili Qoşunların şəxsi heyəti digər qoşun növlərinin şəxsi heyəti ilə birgə döyüş təlimlərində də peşəkarlıq cəhətdən fərqlənmişdir. Bütün bunlar onu göstərir ki, Daxili Qoşunların şəxsi heyəti qarşısına qoyulan istənilən döyüş tapşırığını yerinə yetirməyə daim hazır və qadirdir.











6_Layout 1 08.03.2019 10:25 Page 1



DÖVLƏTÇİLİYƏ SƏDAQƏT, DÖVLƏT QANUNLARINA HÖRMƏT, PEŞƏKAR XİDMƏT!

# DAXİLİ QOŞUNLAR: XİDMƏTİ-DÖYÜŞ TAPŞIRIQLARININ XRONOLOGİYASI

***Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ötən 27 ildə öz statusu ilə müəyyən edilmiş vəzifələrdən irəli gələrək, paytaxt Bakıda və bölgələrimizdə müxtəlif təyinatlı xüsusi əməliyyatlarda iştirak etmişdir. Hərbi qulluqçularımız Daxili İşlər Naziri və Daxili Qoşunların Komandanı tərəfindən qarşıya qoyulmuş xüsusi tapşırıqların yerinə yetirilməsi zamanı dövlətçiliyə sədaqət, qətiyyət və sayıqlıq nümunələri göstərmişlər.***

***Yaşayış məntəqələrində kütləvi iğtişaşların qarşısının alınması, ayrı-ayrı ərazilərdə silahlı cinayətkarların axtarılması və zərərsizləşdirilməsi, cəzaçəkmə müəssisələrində kütləvi iğtişaşlar nəticəsində pozulmuş daxili rejim qaydalarının bərpa olunması, irihəcmli qəzaların və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması zamanı ictimai asayişin mühafizəsi, vətəndaşların xilas edilməsi, dövlət və əhaliyə məxsus əmlakın qəza və təbii fəlakət zonalarından təxliyyəsi üzrə xüsusi əməliyyatların uğurla keçirilməsi məhz şəxsi heyətin peşəkarlığı və yüksək mənəvi-psixoloji hazırlığının göstəricisidir.***

***Bir çox xüsusi əməliyyatlarda Daxili Qoşunların hərbi hissələri polislə birgə və ya koordinasiya olunmuş şəkildə iştirak etmişlər. Şəxsi heyətin silah, texnika, xüsusi vasitələrdən qanunvericiliyin tələblərinə uyğun və effektiv şəkildə istifadə etməsi təmin olunmuşdur.***

***Daxili Qoşunlar ictimai təhlükəsizliyin təmin olunmasında zəngin xidmət təcrübəsi toplamışdır. Bu amil xüsusi əməliyyatların planlaşdırılması, xüsusiyyətləri və keçirilməsi taktikasında da öz əksini tapmışdır.***

**1994-cü il iyul ayında** Qazax-Ağstafa və Zaqatala-Balakən bölgələrində qaçaqmalçılığa qarşı mübarizə məqsədilə aparılan xüsusi əməliyyatda qoşunların şəxsi heyəti iştirak etmiş, bu zaman mühüm nəticələr əldə olunmuşdur.

**1996-cı ilin dekabr ayında** Elçin Əmiraslanovun başçılıq etdiyi silahlı cinayətkar dəstənin yaxalanmasında 99713 saylı hərbi hissənin xüsusi təyinatlı bölüyünün hərbi qulluqçuları cəsurluq nümunəsi göstərərək, tapşırığı qətiyyətlə yerinə yetirmişlər.

**1996-cı il dekabrın 8-də** Quba-Bakı avtomobil yolunun Saray qəsəbəsi yaxınlığındakı sahəsində qurulmuş postda xidmət aparan 16075 saylı hərbi hissənin bir qrup hərbi qulluqçusu “QAZ-24” markalı avtomobili ələ keçirən, vətəndaşları girov götürən silahlı cinayətkarların zərərsizləşdirilməsi üzrə xüsusi tapşırığı bacarıq və cəsarətlə yerinə yetirib. Nəticədə silahlı müqavimət göstərən cinayətkarlardan biri yaxalanıb, digəri aldığı yaralardan həlak olub, girovlar isə azad ediliblər.

**1999-cu ilin yanvar ayında** Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin (hazırda Ədliyyə Nazirliyinin Penitensiar Xidməti) Qobustan qəsəbəsində yerləşən qapalı həbsxanasında baş vermiş fövqəladə hadisə zamanı daxili qayda-qanunun bərpası üzrə xüsusi əməliyyatda qoşunların şəxsi heyəti iştirak etmiş, üzərinə düşən tapşırıqları peşəkarlıqla yerinə yetirmişdir.

Əməliyyat zamanı odlu silah ələ keçirilmiş, girov götürmüş və azadlığa can atan bir qrup məhbus zərərsizləşdirilmişdir.

Əməliyyat zamanı Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin zabiti kapitan Gündüz Abdullayev həlak olmuşdur.

**2000-ci ilin noyabr ayında** Şəki şəhərində baş vermiş kütləvi iğtişaşların qarşısının alınmasında qoşunların 17074 saylı hərbi hissəsinin şəxsi heyəti qətiyyət və peşəkarlıq göstərmiş, qarşıya qoyulan tapşırıqlar yerinə yetirilərək, asayiş bərpa edilmişdir.

**2001-ci ilin iyun-sentyabr aylarında** Zaqatala-Balakən rayonları ərazisində kriminogen durum kəskin şəkildə pisləşmişdir. Həmin ilin **iyun ayının 30-da** silahlı cinayətkarlar Daxili Qoşunların 17074 saylı hərbi hissəsinə basqın etmişlər. Basqın zamanı silahlı cinayətkarların qəfil hücumuna məruz qalan, hərbi hissə üzrə növbədə olan kapitan Bakir Vəliyev özünü itirməmiş, cinayətkarların bütün tələblərini rədd edərək onlara ciddi müqavimət göstərmişdir. Məhz buna görə də cinayətkarlar növbətçi hissədə saxlanılan silahları əldə edə bilməmişlər. Zabitimizin cəsarətini və qorxmazlığını görərək, cinayətkarlardan biri ona odlu silahdan atəş açmışdır. Bundan sonra cinayətkar dəstə hərbi hissədən qaçmış, naməlum istiqamətdə gizlənmişdir. Həmin gecə basqın zamanı cinayətkarlar qərargah növbətçisi olan əsgərə bədən xəsarəti yetirmişlər. Ağır güllə yarası almış kapitan B.Vəliyev sonradan qospitalda vəfat etmişdir.

**Avqustun 19-da** isə Zaqatala Rayon Polis Şöbəsinin əməkdaşları quldurlar tərəfindən atəşə tutulmuşlar. Bölgədə bir sıra terror aktları törədən silahlı cinayətkarların axtarılaraq zərərsizləşdirilməsi məqsədilə keçirilən xüsusi əməliyyatda 17074 saylı hərbi hissə qarşıya qoyulan tapşırıqları mətinlik və fədakarlıqla yerinə yetirmişdir.

**2002-ci il dekabrın 6-da** 16073 saylı hərbi hissənin şəxsi heyətinin iştirakı ilə Qusar rayonu ərazisində silahlı cinayətkarların zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyat keçirilmişdir. Bu silahlı cinayətkarlar mülki şəxsin idarə etdiyi avtomaşını ələ keçirmiş, habelə Qusar şəhərində zərgərlik dükanını qarət edərək, satıcını qətlə yetirmişlər. Cinayətkarlar zərərsizləşdirilərkən silahlı müqavimət göstərmişlər. Xüsusi əməliyyat nəticəsində silahlı cinayətkarlardan biri yaxalanmış, digərləri məhv edilmişlər.

**2003-cü ilin oktyabr ayının 15-16-da** Bakıda radikal müxalifət qüvvələrinin təhriki ilə kütləvi iğtişaşlar törədilmişdir. Kütləvi iğtişaşların qarşısının alınması, paytaxtda ictimai asayişin və təhlükəsizliyin bərpa olunmasında Daxili Qoşunların şəxsi heyəti qətiyyət və qorxmazlıq göstərmiş, qanunazidd hərəkətlərə son qoyulmuşdur.

**2005-ci il fevralın 15-də** Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin 11 saylı cəzaçəkmə müəssisəsində bir qrup məhkum itaətsizliklə müşayiət olunan etiraz aksiyası keçirmişdir. Etiraz aksiyası keçirən məhkumlar müəssisədə saxlanma qaydalarına zidd olan tələblər irəli sürmüş, müxtəlif əşyalarla silahlanmış, digər məhkumlara fiziki və psixoloji təsir göstərməklə onları da itaətsizliyə məcbur etmişlər. Onlar, həmçinin, müəssisədə yanğınlar törətməyə cəhd göstərmişlər. İğtişaş törədən məhkumlar əldə etdikləri metal parçaları, kəsici-deşici əşyalarla digər məhkumların, habelə müəssisə əməkdaşlarının həyat və sağlamlığı üçün real təhlükə yaratmışlar.

Yaranmış vəziyyətlə əlaqədar fevralın 16-da Daxili Qoşunların şəxsi heyəti 11 saylı cəzaçəkmə müəssisəsində normal fəaliyyətin bərpa edilməsi, iğtişaşların qarşısının alınması üzrə xüsusi əməliyyata cəlb olunmuşdur. Xüsusi əməliyyat zamanı qanunvericiliyə uyğun olaraq xüsusi vasitələr tətbiq edilmişdir. Görülmüş tədbirlər nəticəsində cəzaçəkmə müəssisəsində daxili qayda-qanun bərpa olunmuşdur. Daxili Qoşunların şəxsi heyətindən 25 nəfər hərbi qulluqçu müxtəlif dərəcəli bədən xəsarətləri almışlar.

Respublika Baş Prokurorluğu, Ədliyyə Nazirliyi və Daxili İşlər Nazirliyinin birgə planına əsasən, cəzaçəkmə müəssisələrində qayda-qanunun bərpa edilməsi, təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi, habelə məhkumlarda və obyektlərdə saxlanması qadağan











olunan əşyaların, eləcə də cinayətlərin törədilməsinə hazırlığın aşkar edilməsi məqsədilə **2005-ci il fevralın 19-da** bir sıra cəzaçəkmə müəssisələrində Daxili Qoşunların şəxsi heyətinin iştirakı ilə əməliyyat-rejim tədbirləri keçirilmişdir. Bununla əlaqədar Daxili Qoşunların Baş İdarəsinin və hərbi hissələrin şəxsi heyətindən ibarət tərkibdə xüsusi qruplar yaradılmış və təyinatı üzrə fəaliyyətə başlamışdır. 2, 6, 12 və 13 saylı cəzaçəkmə müəssisələrində, habelə Qobustan qapalı həbsxanasında məhkumların üstünə və saxlandığı binalara baxış keçirilmişdir. Baxış zamanı müxtəlif növ və sayda deşici və kəsici əşyalar, küt alətlər, istifadəsi qadağan olunan cihazlar aşkar olunaraq götürülmüşdür.

**2008-ci ilin avqust ayında** Qusar rayonu ərazisində cinayətkar qrupun zərərsizləşdirilməsi üzrə aparılan xüsusi əməliyyat zamanı Daxili Qoşunların şəxsi heyəti cinayətkarların axtarılmasında, silah-sursatın tapılıb zərərsizləşdirilməsində əzmkarlıq və qətiyyət göstərmişdir. Bu əməliyyat zamanı Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin hərbi qulluqçusu çavuş Yolçuyev Əli Kərim oğlu döyüş tapşırığını yerinə yetirərkən həlak olmuşdur.

**2008-ci ilin oktyabr-noyabr aylarında** Bakı şəhər Əzizbəyov (hazırda Xəzər) rayonu ərazisində yerləşən keçmiş təlim-sınaq məntəqəsinin partlayıcı maddə və döyüş sursartlarından təmizlənməsi zamanı 136 ədəd əl qumbarası, 1 ədəd aviamərmi, 13 ədəd mərmi, 7 ədəd tank əleyhinə mərmi, 24 ədəd qumbara partladıcısı, 20 ədəd mərmi partladıcısı, 30 ədəd əl qumbarası partladıcısı və digər sursatlar aşkar edilərək götürülmüş, zərərsizləşdirilmişdir.

**2010-cu ilin may ayında** mövsümlə əlaqədar olaraq, Kür çayının daşması nəticəsində respublikamızın Sabirabad, İmişli, Saatlı və Hacıqabul rayonları ərazisində təbii fəlakətin nəticələrinin aradan qaldırılmasında Daxili Qoşunların şəxsi heyəti yaxından iştirak etmiş, qarşıya qoyulmuş tapşırıqlar uğurla yerinə yetirilmişdir.

**2011-ci ilin dekabr ayının 25-də** Lənkəran rayonunun Nərimanabad kəndində, qanunsuz balıq ovu ilə əlaqədar, Dövlət Sərhəd Xidmətinin əməkdaşlarının gördüyü tədbirlər əleyhinə çıxan kənd sakinləri tərəfindən törədilmiş kütləvi iğtişaşın qarşısının alınmasında Daxili Qoşunların 25033 saylı hərbi hissəsinin şəxsi heyəti qətiyyət və peşəkarlıq göstərmiş, qarşıya qoyulan tapşırıqlar yerinə yetirilərək asayiş bərpa edilmişdir.

**2012-ci ilin mart ayının 1-də** radikal müxalifət qüvvələri Quba rayonunun İcra Hakimiyyətinin başçısının çıxışlarının birində rayon əhalisinin ünvanına deyilmiş sözləri bəhanə gətirərək, rayon sakinlərini yerli hakimiyyət orqanlarına itaətsizlik göstərməsinə təhrik etmiş və icazəsiz mitinq keçirmişlər. Yaranmış vəziyyətlə əlaqədar polis əməkdaşları ilə birgə ictimai asayişin qorunması və ictimai təhlükəsizliyin təmin olunması üçün Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin şəxsi heyəti Quba şəhərində bir qrup şəxsin qanunazidd hərəkətlərinin qarşısını alaraq qarşıya qoyulmuş tapşırığı uğurla yerinə yetirmiş və rayonda asayiş bərpa olunmuşdur.

**2013-cü ilin yanvar ayının 24-27-də** İsmayıllı rayonunda ictimai asayişin kütləvi şəkildə pozulması ilə müşayiət olunan məlum hadisələr zamanı ictimai qaydanın və ictimai təhlükəsizliyin qrup şəklində pozulmasının qarşısının alınması üzrə xüsusi əməliyyatın keçirilməsinə Daxili Qoşunların şəxsi heyəti cəlb olunmuş və qarşıya qoyulan bütün xidməti-döyüş tapşırıqları yerinə yetirilərək ictimai asayiş bərpa olunmuşdur.

**2013-cü ilin oktyabr ayının 16-da** Qusar rayonunda, **noyabr ayının 24-də** isə Zaqatala şəhərində baş vermiş cinayət hadisəsi ilə bağlı silahlı cinayətkarın axtarılması və zərərsizləşdirilməsi üzrə xüsusi əməliyyatlarda Daxili Qoşunların şəxsi heyəti fəal iştirak edərək cəsarət və qorxmazlıq nümayiş etdirmiş, qarşıya qoyulan bütün xidməti-döyüş tapşırıqlarının öhdəsindən yüksək peşəkarlıqla gəlmişdir.

**2015-ci il may ayının 19-da** Bakı şəhərinin Binəqədi rayonunda yerləşən 16 mərtəbəli yaşayış binasında baş vermiş yanğın zamanı xilasetmə işlərində digər aidiyyəti qurumlarla yanaşı, Daxili Qoşunların şəxsi heyəti də xüsusi fəallıq göstərmişdir. Zərərçəkmiş şəxslərin xilas edilməsinə qoşunların Eskadrilyasının ekipajı və 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin 9 hərbi qulluqçusu cəlb olunmuş, bina sakinlərinin təxliyyəsi üçün xilasetmə əməliyyatı keçirilmişdir.

Helikopter 30 metrə yaxın hündürlükdə 16 mərtəbəli binanın damına yaxınlaşdırılmış, sonra xüsusi təyinatlı dəstənin 3 hərbi qulluqçusu alpinist ipləri və kanatlar vasitəsilə binanın üstünə enərək xilasetmə işlərini müvəffəqiyyətlə həyata keçirmişlər. Daxili Qoşunların hərbi qulluqçuları ilk dəfə olaraq çoxmərtəbəli binada helikopter vasitəsilə vətəndaşların təxliyyəsi üzrə xilasetmə işləri aparmışlar.

Xidməti-vəzifə borclarını layiqincə yerinə yetirmiş, vətəndaşların həyatını xilas etmiş hərbi qulluqçularımız Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov tərəfindən mükafatlandırılmışlar.

**2015-ci il mayın 28-də** Daxili Qoşunların şəxsi heyəti Şabran rayonunda hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birgə əməliyyat-axtarış tədbirlərinin keçirilməsində iştirak etmişdir.

**2015-ci il 21-31 avqust tarixlərində** Daxili Qoşunların şəxsi heyəti Mingəçevir şəhərində ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasında iştirak etmiş, qarşıya qoyulmuş tapşırıq müvəffəqiyyətlə icra edilmişdir.

Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi pozmağı, təxribatlar, kütləvi iğtişaşlar, terror aktları, bütövlükdə konstitusiya quruluşunu dəyişdirməklə şəriət qanunları ilə idarə olunan dini dövlətin yaradılmasını planlaşdıran silahlı cinayətkar dəstənin zərərsizləşdirilməsi üzrə **2015-ci il noyabrın 26-da** Daxili İşlər Nazirliyi tərəfindən Bakı şəhərinin Nardaran qəsəbəsində xüsusi əməliyyat keçirilmişdir.

Vətəndaşlarımızın hüquqlarının, azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi, əllərdə qanunsuz saxlanan odlu silahların, partlayıcı maddə və qurğuların yığılması məqsədilə 2015-ci il dekabr ayının 1-də qəsəbədə xüsusi əməliyyat keçirilməsinə başlanmışdır. Müvafiq plana uyğun olaraq, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və nizami polis hissələrinin məhdud sayda xüsusi texnikası, şəxsi heyəti qəsəbəyə daxil olmuş, müəyyən edilmiş yerlərdə postlar qoyulmuşdur. Həyata keçirilən tədbirlər nəticəsində qanunazidd hərəkətlərin qarşısı alınmışdır.

**2016-cı il 12-26 yanvar, 15-25 yanvar, 13 yanvar - 27 fevral tarixlərində** Daxili Qoşunların şəxsi heyəti polis əməkdaşları ilə birgə Horadiz şəhərində, Siyəzən və Quba rayonlarında insan hüquq və azadlıqlarının, habelə ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsində iştirak etmişdir.

***Daxili Qoşunların şəxsi heyətinin xalqımızın əmin-amanlığı keşiyində mübariz xidməti dövlət rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir və ölkə ictimaiyyətinin dərin rəğbətini qazanır.***

7_Layout 1 08.03.2019 10:30 Page 1



# DAXİLİ QOŞUNLARIN BEYNƏLXALQ HƏRBİ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİNİN DÜNƏNİ VƏ BU GÜNÜ





***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının ötən 27 ildə uğurlu xidməti fəaliyyətinin mühüm səhifələrindən biri də beynəlxalq hərbi əməkdaşlıq əlaqələrinin qurulmasıdır.***

***Daxili Qoşunlarda Beynəlxalq hərbi əməkdaşlıq xidməti 1997-ci ildən fəaliyyət göstərir. Ötən dövr ərzində xidmətin fəaliyyəti təkmilləşdirilərək Daxili Qoşunların Baş İdarəsində Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi yaradılıb. Şöbənin qarşısında duran əsas vəzifələrə Daxili Qoşunların digər dövlətlərin müvafiq strukturları ilə əməkdaşlığın yaradılması, bu sahədə beynəlxalq razılaşmaların hazırlanması və reallaşdırılması üzrə tədbirlərin yerinə yetirilməsi aiddir.***

***Daxili Qoşunların beynəlxalq hərbi əməkdaşlıq əlaqələrinin başladığı vaxtdan bu günədək əsas məramlarını xarici həmkarların qabaqcıl təcrübəsinin öyrənilməsi, hərbi qulluqçularımızın müasir texnologiyalara, yeni texnika, silah və xüsusi vasitələrin xüsusiyyətlərinə dərindən yiyələnməsi, praktiki fəaliyyətlərə hazırlığının yüksəldilməsi və təlim-təhsil prosesi standartlarının təkmilləşdirilməsi təşkil edir.***











Daxili Qoşunların beynəlxalq əlaqələrinin təməlini Milli Lider Heydər Əliyev qoymuşdur. Ulu Öndərin təşəbbüsü ilə 1996-cı il iyun ayının 10-da Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında hərbi təlim, texniki və elmi sahədə əməkdaşlıq haqqında saziş imzalandı. Bu sazişə uyğun olaraq, Daxili Qoşunların 6 nəfər hərbi qulluqçusu Türkiyə Jandarm Baş Komandanlığının hərbi təhsil məktəbində təhsil almağa göndərildi. Onlar Daxili Qoşunları qardaş Türkiyə Cümhuriyyətində təmsil edən ilk hərbi qulluqçular oldu.

1997-ci ildən etibarən indiyə qədər Daxili Qoşunlar tərəfindən beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə ikitərəfli münasibətlər çərçivəsində Türkiyə, Belarus, Rusiya, Çin, Qazaxıstan, Qırğızıstan, ABŞ, Fransa və Ukraynanın müvafiq qurumları ilə əməkdaşlıq əlaqələri qurulmuşdur.

1997-ci il oktyabrın 31-də "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlar Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına dair Protokol" imzalandı. Bu Protokolun imzalanması tarixi hadisə kimi qiymətləndirilə bilər. Bununla Azərbaycan Daxili Qoşunları ilə Türkiyə Jandarm Baş Komandanlığı arasında uğurlu əməkdaşlığın təməli qoyuldu.

Daxili İşlər Nazirliyi Daxili Qoşunları ilə Çin Xalq Azadlıq Ordusu, Silahlı Milis Qüvvələri və həmin ölkənin Azərbaycandakı Hərbi Attaşeliyi arasında əməkdaşlıq münasibətlərinin tarixi qısa zamanı əhatə etsə də, müvafiq dövr ərzində qarşılıqlı əlaqələr xeyli inkişaf etdirilmişdir. Xüsusilə Daxili Qoşunların hərbi qulluqçularının Çinin adıçəkilən qurumlarının tədris mərkəzlərində təlim keçməsi üçün vacib işlər görülmüşdür. Hərbi qulluqçularımız bu ölkənin müxtəlif tədris mərkəzlərində əməliyyatın və qoşunların idarə olunması, milli hərbi təhlükəsizlik, hərbi idman təlimatçılarının hazırlığı və s. istiqamətlər üzrə kurslar keçmişlər.

Daxili İşlər Nazirliyi Daxili Qoşunları ilə Rusiya Federasiyası (RF) Daxili İşlər Nazirliyi Daxili Qoşunları (hazırda Rusiya Federasiyasının Milli Qvardiyası) arasında əməkdaşlıq əlaqələrinin təməli son illərdə qoyulmuşdur.

2006-2011-ci illərdə AR DİN-in Daxili Qoşunları ilə RF DİN-in Daxili Qoşunlarının nümayəndə heyətlərinin qarşılıqlı səfərləri gerçəkləşdirilmiş, bu səfərlər birgə əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini vermişdir.

Azərbaycan DİN-in Daxili Qoşunlarının Amerika Birləşmiş Ştatlarının (ABŞ) hüquq-mühafizə qrumları ilə əməkdaşlıq münasibətləri də səmərəli olmuşdur.

2001-2016-cı illərdə Daxili Qoşunların hərbi qulluqçuları ABŞ və ölkəmizdə təşkil olunan müxtəlif mövzulu kurslara cəlb olunmuşlar.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının beynəlxalq əməkdaşlığı tarixində Avropa və Aralıq Dənizi Ölkələrinin Hərbi Statuslu Polis və Jandarmlar Birliyi (FİEP) ilə təmaslar da xüsusi qeyd olunmalıdır. 2006-cı ilin sentyabr ayında FİEP-in qiymətləndirmə qrupunun üzvləri ölkəmizdə rəsmi səfərdə olmuşlar. Qrup üzvləri Daxili Qoşunların xidməti ilə tanış olduqdan sonra xoş təəssüratlarını bildirmişlər.

ATƏT-lə əməkdaşlıq əlaqələri çərçivəsində beynəlxalq standartların öyrənilməsi üçün Almaniya, Macarıstan və Türkiyənin aidiyyəti qurumlarının dəstəyilə kütləvi iğtişaşların qarşısının alınması mövzusunda keçirilmiş təlimlərdə hərbi qulluqçularımızın iştirakı onların bilik və təcrübələrinin artırılmasında xüsusi rol oynamışdır.

Daxili Qoşunların Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə əməkdaşlıq əlaqələri də diqqətəlayiqdir. BQXK-nın Bakı nümayəndəliyinin həyata keçirdiyi təlim proqramları çərçivəsində beynəlxalq humanitar hüquq, insan haqları və s. mövzularda təşkil olunan seminar və kurslarda Daxili Qoşunların hərbi qulluqçuları müntəzəm olaraq fəal iştirak etmiş və onlara müvafiq sertifikatlar verilmişdir.

Daxili Qoşunlarda NATO, ATƏT, BQXK və digər beynəlxalq təşkilatların nümayəndələri, bir sıra xarici ölkələrin səfirləri və hərbi attaşeləri ilə daim görüşlər keçirilir, əməkdaşlıq əlaqələri barədə geniş fikir mübadiləsi aparılır.

Bu gün Azərbaycan Respublikası DİN-in Daxili Qoşunları Avrasiya Hərbi Statuslu Hüquq-Mühafizə Qurumları Təşkilatının üzvüdür. Təşkilatın ilk toplantısı 2011-ci il 7-10 iyun tarixlərində Türkiyənin İstanbul şəhərində keçirilmişdir. Qurumun ilk iclasında Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Monqolustan respublikalarının hərbi statuslu hüquq-mühafizə qurumlarının rəhbərləri iştirak etmişlər.

Belarus Respublikasının DİN-in Daxili Qoşunları ilə Azərbaycan Respublikası DİN-in Daxili Qoşunları arasında əməkdaşlıq münasibətləri son illər ərzində formalaşmışdır.

Əməkdaşlıq əlaqələri çərçivəsində son illər Azərbaycan DİN-in Daxili Qoşunlarının və Belarus DİN-in Daxili Qoşunlarının yüksək vəzifəli şəxslərinin rəhbərlik etdiyi nümayəndə heyətlərinin qarşılıqlı səfərləri reallaşdırılmışdır.

Keçirilən görüşlər zamanı əməkdaşlığın gələcək perspektivlərilə bağlı səmərəli müzakirələr aparılmış, əlaqələrin inkişaf istiqamətləri müəyyənləşdirilmişdir.

**Daxili Qoşunların beynəlxalq əməkdaşlıq əlaqələri bu gün uğurla inkişaf etdirilir. Beynəlxalq əməkdaşlıq prosesi xidməti fəaliyyətdə yeniliklərə yol açır, peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə təkan verir. Dünyanın qabaqcıl ölkələrinin müvafiq güc strukturlarının təcrübəsinin öyrənilməsi, qarşılıqlı informasiya mübadiləsi xidməti vəzifələrin yerinə yetirilməsində, təlimlərdə müasir standartların tətbiqinə real zəmin yaradır.**









8_Layout 1 08.03.2019 10:39 Page 1



# DAXİLİ QOŞUNLARIN VETERANLARI

***Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının sıralarında uzun illər ləyaqətlə xidmət etmiş, Daxili Qoşunların formalaşması və inkişafında təqdirəlayiq əməyi olan hərbi qulluqçuların bir hissəsi bu gün ehtiyatdadırlar. Onların böyük bir qismi müharibə və Silahlı Qüvvələr veteranı adını daşıyırlar. Veteranlar bizim fəxrimizdir, onların Daxili Qoşunların bugünkü səviyyəyə yüksəlməsində xidmətlərini danmaq və unutmaq olmaz.***



Milli Lider Heydər Əliyev öz çıxışlarında veteranları cəmiyyətimizin dəyərli üzvləri kimi xarakterizə etmiş, gənc nəslin vətənpərvərlik tərbiyəsində onların fəaliyyətinə böyük əhəmiyyət vermişdir.

Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev də veteranlara həmişə diqqət və qayğı göstərmiş, onların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə bir çox fərman və sərəncamlar imzalamış, veteranların fəaliyyətinə dəstəklə bağlı dövlət orqanlarına müvafiq tapşırıqlar vermişdir.

Daxili Qoşunların veteranları döyüş sınaqlarından keçmiş, hərbi xidmətdə peşəkarlıq zirvəsinə ucalmış, zəngin həyat təcrübəsinə malik şəxslərdir. Onlar müasir tariximizin bir çox mühüm hadisələrinin şahidi olmuş, ölkəmiz üçün çətin günlərdə əqidəsinə, hərbi andına sadiq qalmış, əzmkarlıq göstərmişlər.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən veteranların qayğıları, fəaliyyəti və müraciətləri xüsusi diqqət mərkəzində saxlanır.

Bü gün Daxili Qoşunların veteranlarını birləşdirən ictimai təşkilat olaraq Daxili Qoşunların Veteranlar Şurası fəaliyyət göstərir. Veteranlar Şurasının Əsasnaməsi 15.01.2005-ci il tarixdə Daxili



Qoşunlar Komandanının müvafiq əmri ilə təsdiq olunmuşdur. Təşkilatın tərkibində Daxili Qoşunların müharibə və Silahlı Qüvvələr veteranları təmsil olunurlar. Şura veteranlarımızın hüquq və mənafelərini müdafiə edir, onların təşkilatlanması yönündə təd-



birlər həyata keçirir. Veteranlar Şurası veteranlarla Daxili Qoşunlar arasında mənəvi bağlantı yaradan, həmçinin, veteranların özlərinin qarşılıqlı əlaqələrini qoruyub saxlayan bir qurumdur.

Təşkilatın idarə heyətinin tərkibi veteranların iki ildən bir keçirilən ümumi yığıncağında seçilir.

# DAXİLİ QOŞUNLARIN RƏSMİ İNTERNET SƏHİFƏSİ




***2014-cü il mayın 30-dan etibarən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının www.dq.mia.gov.az ünvanında rəsmi internet səhifəsi işə başlamışdır.***

İnternet səhifəsinin yaradılmasında əsas məqsəd Daxili Qoşunların ictimaiyyətlə əlaqələrinin səmərəliliyinin artırılması, habelə qoşunların həyatında baş vermiş yeniliklər barədə cəmiyyətin mütəmadi olaraq daha dolğun məlumatlandırılmasından ibarətdir. Səhifə müvafiq sahələr üzrə kataloqlar, faydalı informasiya resursları və linklərlə təmin olunmuşdur.

Saytda Milli Lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin həyat və fəaliyyətini əks etdirən materiallarla yanaşı, Daxili Qoşunların tarixi, döyüş yolu, xidməti-döyüş fəaliyyətinin müxtəlif istiqamətləri geniş işıqlandırılmışdır.

İnternet səhifəsində Daxili Qoşunların Ali Hərbi Məktəbi, Hərbi Qospitalı, Nümunəvi-göstərici hərbi orkestri və Muzeyi haqqında geniş məlumatlar verilmiş, o cümlədən qoşunların mətbu orqanı olan “Əsgər” qəzetinin elektron variantı və fotoalbom yerləşdirilmişdir.

Eyni zamanda, səhifənin istifadəçiləri müvafiq hərbi qanunvericilik bazasından da faydalana bilərlər.

Vətəndaşlar sayt vasitəsilə onları maraqlandıran məsələlərlə bağlı Daxili Qoşunların Baş İdarəsinə onlayn müraciət etmək imkanına malikdirlər.

# DAXİLİ QOŞUNLARIN İDMAN HƏYATI

***Şəxsi heyətin idmanla məşğul olması, fiziki hazırlığını artırması üçün yüksək səviyyədə şərait yaradılıb***

***Daxili Qoşunların döyüş təlimi prosesində şəxsi heyətin idman və fiziki hazırlığına xüsusi diqqət yetirilir. Hərbi qulluqçuların sağlam həyat tərzinin qorunub saxlanması, bədən tərbiyəsinin inkişafı və fiziki hazırlığının yüksəldilməsini xidməti fəaliyyət baxımından mühüm amillər kimi xarakterizə etmək olar. Mükəmməl fiziki hazırlıq yüksək döyüş hazırlığının vacib şərtlərindən biridir. Məhz buna görə də Daxili Qoşunların Baş İdarəsində və hərbi hissələrdə şəxsi heyətin idmanla məşğul olması, fiziki hazırlığını artırması üçün yüksək səviyyədə şərait yaradılıb. Belə ki, Daxili Qoşunların Baş İdarəsində idman zalı, hərbi hissələrdə isə idman şəhərcikləri mövcuddur. Bundan əlavə, Daxili Qoşunlarda peşəkar idmançıların xidmət etdiyi İdman komandası fəaliyyət göstərir.***

Ötən 27 ildə Daxili Qoşunların sanballı idman potensialının formalaşması yönündə uğurlu yol qət edilib.

Daxili Qoşunların hərbi qulluqçularının daxil olduğu yığma komandalar ötən illər müxtəlif idman növləri üzrə yarışlarda fərqlənmiş, mükafatlar qazanılmasında kollektiv əzmini nümayiş etdirmişdir. Belə nailiyyətlər Daxili Qoşunların idman potensialını zənginləşdirmişdir.

Bu gün Daxili Qoşunların sıralarında beynəlxalq dərəcəli idman ustası, idman ustalığına namizəd, I, II, III idman dərəcələrinin daşıyıcısı, habelə I, II dərəcəli hərbi idman kompleksi nişançısı olan hərbi qulluqçular xidmət edirlər.

Ötən 25 il ərzində idman arenalarında, mötəbər yarışlarda Daxili Qoşunların bir çox zabit, gizir, çavuş və əsgərləri yenilməzlik nümunəsi göstərmişlər. Onlar özünəməxsus hərbçi nizamı, iradə və qətiyyəti sayəsində, məşqlərdə gərgin əmək sərf edərək, vətən sevgisi ilə milli idmanımıza yeni-yeni mükafatlar qazandırmışlar.

İnanırıq ki, idmançı hərbi qulluqçularımız şərəfli ənənələri bundan sonra da uğurla davam etdirəcəklər.







# XİDMƏTİ FƏALİYYƏTİMİZDƏ VƏTƏNDAŞLARLA VƏ İCTİMAİ QURUMLARLA TƏMASLAR...

# DAXİLİ QOŞUNLARIN İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİ

***Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Komandanlığı ictimaiyyətlə əlaqələrin qurulmasına çox ciddi diqqət yetirir. Elə bu səbəbdəndir ki, bütün hərbi hissələrdə mütəmadi olaraq "Açıq qapı günü" təşkil edilir, əsgər valideynləri ilə görüşlər keçirilir.***

***Əsgər valideynləri ilə görüşlər zamanı qoşunlarda həyata keçirilən quruculuq işləri, yerinə yetirilən vəzifələr barədə məlumat verilir, hərbi qulluqçular üçün yaradılmış sosial-məişət şəraiti, əsgər kazarmaları, yeməkxana, tibb məntəqəsi, camaşırxana kompleksləri və s. xidmət sahələri nümayiş etdirilir.***



Əsasən həftənin bazar günləri keçirilən görüşlərdə əsgər valideynləri Daxili Qoşunların Komandanlığı, o cümlədən hərbi hissələrin komandanlığı tərəfindən qəbul edilir, onların müraciətləri dinlənilir, nəzərə çatdırılan problemlərin araşdırılaraq aradan qaldırılması istiqamətində konkret göstərişlər verilir, icrası qısa vaxt tələb edən məsələlər isə yerindəcə həllini tapır.

Daxili Qoşunların Komandanlığı gənc və yeniyetmələrə hərbi-vətənpərvərlik hissi aşılayan layihələri daim dəstəkləyir. Daxili Qoşunlar tərəfindən şagird və tələbələr üçün hərbi təmayüllü yay istirahət düşərgələrinin yaradılması dəyərli nümunə olmaqla, ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

Vətənə sevgi, dövlət və dövlətçiliyimizə sədaqət mövzusunu özündə əks etdirən videoçarxların, sənədli filmlərin çəkilməsində, televiziya və radio verilişlərinin hazırlanmasında Daxili Qoşunların məsul vəzifəli şəxslərinin də əməyi təqdirəlayiqdir.

Daxili Qoşunların şəxsi heyəti Azərbaycan kinematoqraflarının müəllifi olduğu, vətənpərvərlik və dövlətçilik mövzusunda bir sıra bədii filmlərin çəkilişində iştirak etmişdir.

Daxili Qoşunların Baş İdarəsində və hərbi hissələrdə müntəzəm olaraq ədəbiyyat və elm xadimləri, müxtəlif sahələrin mütəxəssisləri ilə görüşlər keçirilir, incəsənət ustalarının iştirakı ilə konsertlər, tamaşalar nümayiş etdirilir.

Bundan başqa, Daxili Qoşunların dövlət və bir sıra qeyri-hökumət təşkilatları ilə də sıx qarşılıqlı əlaqələri mövcuddur.

Ombudsman Aparatının, eləcə də İşgəncələrə Qarşı Azərbaycan Komitəsinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndələri mütəmadi olaraq şəxsi heyətin xidməti fəaliyyəti ilə tanış olur, hərbi qulluqçuların maarifləndirilməsi yönündə söhbətlər aparılır.

Adıçəkilən qurumlar tərəfindən hərbi hissələrimizə baxışlar keçirilir, şəxsi heyətin yüksək nizam-intizamı, hərbi qulluqçular arasında formalaşmış sağlam zəmində qarşılıqlı münasibətlər yüksək qiymətləndirilir.









TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu: (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000